Azərbaycan Respublikası
Təhsil Nazirliyi

Azərbaycan Dövlət
Pedaqoji Universiteti

GÖRKƏMLİ DİLÇİ ALİM,
MÜASİR AZƏRBAYCAN ƏLİFBASININ MÜƏLLİFİ
AFAD QURBANOVUN
90 İLLİYİNƏ HƏSR OLUNMUŞ

# MÜASİR DİLÇİLİYİN AKTUAL PROBLEMLƏRİ

BEYNƏLXALQ ELMİ
KONFRANSININ MATERİALLARI

Bakı, 6-7 iyun 2019

**MARİJA DİNDİC**

Professor,

Serbiya Elmlər və İncəsənət Akademiyası Serb Dili İnstitutu idarə heyətinin üzvü,

Serbiya (Azərbaycan dilində çıxış etdi)

**Hörmətli rektor, akademiklər, dekanlar, Qurbanovlar ailəsinin üzvləri, əziz kollektiv və dostlar!**

Əvvəlcədən dəvətiniz üçün böyük minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda, Serbiya Elmlər və İncəsənət Akademiyasının həmkarlarından sizə böyük salam çatdırmaq istəyirəm. Dilçi professor Afad Qurbanovun doğumunun 90-cı ili münasibətilə "Müasir dilçiliyin aktual problemləri" elmi konfransında bugün bizə evsahibliyi etdiyi üçün Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Dövlət Pedaqoji Universitetinə təşəkkür etmək istəyirəm.

Bu konfranslar uzun illər boyunca bəyanatlar və monoqrafiyalar yayımlayaraq, yeni nəsilləri təşviq edərək bilim adamlarının öz sahələrində araşdırmalarını inkişaf etdirməsində çox faydalı olur. Afad Qurbanov yazdığı bir çox əsərlər və yeni latın əlifbası ilə qurduğu Azərbaycan onomatolojisi elmi məktəbi vasitəsilə Azərbaycanda dilçiliyin inkişafında çox böyük səy göstərmişdir. Afad Qurbanov Azərbaycan dilçiliyində ən hörmətli yerlərdən birini tutmaqdadır.

Azərbaycan Onomastika Elmi Dərnəyi 1986-cı ildə Azərbaycanda Afad Qurbanov tərəfindən qurulmuşdur. Cəmiyyətin ilk 1986 və ikinci 1988-ci il yığıncaqları ADPU-da təşkil olundu və 33 il sonra eyni universitet onomastik məsələlərə həsr olunmuş bu konfransa evsahibliyini yenidən keçirir. Ayrıca Afad Qurbanov tərəfindən qurulan onomatoloji elmi məktəb Belçika, Norveç, Türkiyə, Rusiya, İran başda olmaqla bir çox ölkələrdə məşhurdur.

Belqrad Universiteti Filologiya fakültəsində azəri dilinin tədrisi bu il oktyabrdan başlayacaqdır. Bunun müjdəsini bu konfransda sizə çatdırmaq məni çox xoşbəxt edir. Tələbələrin başqaları arasında Afad Qurbanovun "Ümumi dilçilik"i başda olmaqla əsərlərindən məlumat almaq üçün fürsətləri olacaqdır. Bu, bütün Cənub-Şərqi Avropada azəri dilinin tək dil bilimi olacaq. Beləcə, Serbiyada Serbdilli Elmlər və İncəsənət Akademiyasının Onomastik Araşdırmalar Komitəsi tərəfindən illər boyu koordinasiya olunan, müxtəlif elmlər və xüsusən də onomastika sahəsində bilik mübadiləsinə töhfə veriləcək.

Digər tərəfdən, ümid edirəm bu konfrans yeni fikirlər və dilçilikdəki çətin məsələlərdə müzakirə mübadiləsi və gələcəkdə iştirakçıların iş birliyini təşviq edəcəkdir.

Konfransın məhsuldar olmasını arzu edirəm.